Support for Improvement in Governance and Management
A joint initiative of the OECD and the EU, principally financed by the EU
SIGMA

**Brief 23**

September 2011

## Public Procurement

# Müdafiə Satınalmaları

M Ü N D Ə R İ C A T


- Müdafiə satınalmaları anlayışı
- Müdafiə satınalmalarının müəyyən xüsusiyyətləri
- Avropa Birliyində müdafiə satınalmaları
- Tənzimləyici mexanizm: İlkin AB Qanunu – Ümumi qaydalar və prinsiplər
- Tənzimləyici mexanizm; İkinci AB Qanunu – Müdafiə və Təhlükəsizlik direktivi
- Digər məsələlər (Ofsetlər, Paralel rejimlər)
- Müdafiə satınalmaları: AB-Üçüncü ölkələr


EUROPEAN COMMISSION
OECD BETTER POLICIES FOR BETTER LIVES

www.sigmaweb.org
This document has been produced with the financial assistance of the European Union. The views expressed herein can in no way be taken to reflect the official opinion of the European Union, and do not necessarily reflect the views of the OECD and its member countries or of beneficiary countries participating in the SIGMA programme.

## Giriş – Müdafiə satınalmaları anlayışı

Müdafiə satınalması, müdafiə sahəsindəki səlahiyyətli qurumların öz vəzifələrini, tapşırıqlarını icra etmək üçün lazım olan müxtəlif malları, xidmətləri və ya işləri əldə etdikləri bir prosesdir. Misal üçün, bu qurumlar öz inzibati vəzifələrini yerinə yetirmək məqsədilə dəftərxana ləvazimatı və İT (informasiya texnologiyaları) avadanlığı əldə edirlər; əsgərləri üçün qida alırlar; idarələri üçün təmizlik xidmətləri satın alırlar; milli təhlükəsizliyi, ərazi bütövlüyünü qorumaq və ya digər beynəlxalq öhdəlikləri yerinə yetirmək məqsədilə, misal üçün, ölkə xaricindəki sülhməramlı əməliyyatlarda iştirak etmək üçün sualtı qayıqlar, qırıcı təyyarələr, zirehli maşınlar, hərbi ehtiyatlar, raketlər və digər müdafiə materialları alırlar; eyni zamanda müdafiə materiallarını davamlı və problemsiz şəkildə hazır saxlamaq üçün müvafiq mühafizə xidmətləri satın alırlar.

Müdafiə satınalması anlayışının rəsmi termini olmasa da, o *dar* və *geniş* mənada müəyyənləşdirilə bilər.

Geniş mənada müdafiə satınalmaları anlayışı müdafiə sahəsində sifarişçi səlahiyyətli qurumlar tərəfindən həyata keçirilən hər hansı satınalma kimi müəyyənləşdirilir. Bu mənada müdafiə satınalması anlayışı yuxarıda istinad edilən bütün nümunələri əhatə edir: dəftərxana ləvazimatı, İT avadanlığı, təyyarələrin, sualtı qayıqların və s. alınması.

Dar mənada müdafiə satınalmaları *sırf hərbi məqsədləri,* yəni yuxarıdakı nümunələri-sualtı qayıqların, qırıcı təyyarələrin zirehli maşınların, hərbi ehtiyatların, raketlərin və əlaqədar xidmətlərin istifadəsi üçün istehsal edilən və ya nəzərdə tutulan mallar və xidmətləri əhatə edir İddia oluna bilər ki, dar mənada təyin olunan müdafiə satınalmaları da "ikili istifadə" texnologiyaları, yəni prinsip etibarilə həm hərbi, həm də qeyri-hərbi məqsədlər üçün istifadə oluna bilən texnologiyaların alınmasını əhatə edir, bu o zaman ola bilər ki, alınma ilkin olaraq hərbi məqsədlə həyata keçirilmiş və bu "ikili istifadə" texnologiyalarının xüsusiyyətləri hərbi tələbləri qarşılamaq üçün bəzi dəyişikliklərə məruz qalmış olsun.

Eyni sektorda digər müdafiə satınalma fəaliyyəti prinsip etibarilə daha az həssas (satınalma avadanlığı və xidmətləri) olduqda, müdafiə satınalmalarının dar və geniş mənada izahı arasındakı fərq, müdafiə sahəsindəki bəzi satınalma fəaliyyətlərinin milli müdafiə və milli təhlükəsizlik kimi terminlərin məğzi ilə yaxından bağlı olması və adətən müvafiq texnologiyaların (misal üçün, dar mənada izah olunan müdafiə satınalmaları halında) kompleks təbiəti ilə xarakterizə olması faktını əks etdirir. Bu fərq daha çox həssas satınalmaların onun xüsusiyyətlərini tanıyan tənzimləyici rejimə ehtiyac duyması və bir tərəfdən satınalma prosesinin açıqlığı və şəffaflığı arasındakı balansı tutmağa çalışması, digər bir tərəfdən isə satınalma vəziyyətinin əsas təhlükəsizlik məsələlərinin qorunması faktını vurğulayır.

Bu qısa məlumatda xüsusiyyətləri və planlaşdırılan istifadə məqsədinə görə müdafiə və təhlükəsizlik anlayışları ilə sıx bağlı olan müdafiə satınalmalarından bəhs olunur. Başqa sözlə, dar mənada izah olunan müdafiə satınalmaları məsələsindən danışılır. Bu qısa məlumatda

bundan sonra istifadə olunacaq “müdafiə satınalmaları” termini onun dar mənada izah olunmuş variantını əks etdirəcək.

## Müdafiə Satınalmalarının müəyyən xüsusiyyətləri

Təbiəti etibarilə müdafiə satınalmalarının fərqləndirici xüsusiyyətləri vardır.

Birincisi, bu keyfiyyət baxımından ümumi ictimai satınalmadan müdafiə satınalmaları, milli təhlükəsizlik və müdafiənin qorunması məqsədilə fərqlənir.

İkincisi, müdafiə təchizatı mürəkkəb texnologiyaların birləşməsinə meyllidir.

Strateji və təhlükəsizlik öhdəliklərinin birləşməsi və mövzunun mürəkkəbliyi nəticəsində dünyadakı bir çox ölkələr ictimai satınalmada adətən tələb olunan açıqlıq və şəffaflıq haqqında ümumi standartlardan təşkil olunan müdafiə sahəsində çeşidli satınalma qanunvericiliyi təqdim etmişdir.

Açıqlıq və şəffaflıqla bağlı ümumi standartlardan müdafiə satınalmaları haqqında qanunvericiliyin yaranması dərəcəsi yurisdiksiyalar arasında fərqlənir, lakin davamlı olaraq sifarişçi səlahiyyətli qurumlar üçün qanunun adi formasından çox daha geniş formasını cəlb edir.

Təəssüf ki, bu məxfilik və azaldılmış şəffaflıq mühiti, sifarişçi səlahiyyətli qurumlar üzrə qanunun adidən daha geniş forması ilə birlikdə ictimai resursların proteksionizm, korrupsiya və səmərəsiz istifadəsi üçün məhsuldar məkana çevrilməsi məqsədilə özünü qurban verir.

## Avropa Birliyində müdafiə satınalmaları

AB-də müdafiə satınalmaları ictimai satınalmanın gözədəyən əlamətindən ibarətdir. AB-nə üzv 27 dövlətin ümumi müdafiə xərci təxminən 200 milyard avrodur. Bu rəqəmə ümumi satınalma (yəni alışlar, əməliyyat və qoruyub saxlama) üçün xərclənən təqribən 90 milyard avro və xüsusilə yeni müdafiə avadanlığın alınması üçün təxminən 50 milyard avro daxildir.

AB-yə üzv dövlətlər tərəfindən müdafiə satınalmasına ayrılmış əsaslı resurslara baxmayaraq, müdafiə satınalma müqavilələri bir neçə il müxtəlif satınalma qaydaları və prosedurları ilə müxtəlif milli satınalma rejimlərinə məruz qalmışdır. Milli əlamətlərlə bağlı bu fərqlər ruh düşkünlüyünə səbəb olmuş və hətta bəzi hallarda transsərhəd rəqabətin qarşısını almışdır (de yure və ya de fakto). Bunun nəticəsində, indiyə qədər milli müdafiə sənayelərinin qorunması istiqamətində giriş üçün tənzimləyici bariyerlərlə çərçivələnən 27 milli bazardan başqa həqiqi bir pan-Avropa müdafiə satınalmaları bazarı olmamışdır.

AB miqyasında müdafiə satınalmaları bazarı və milli protektionist sənaye siyasətləri ola bilən milli əlamətlər ətrafında parçalanmalara Avropa Birliyinin Fəaliyyəti haqqında Müqavilənin 346-cı maddəsinin imkan verəcəyi düşünülmüşdür (səhvən, aşağıda izah olunduğu kimi). Faktiki olaraq, ABFM-nin 346-cı maddəsinin bu yanlış şərhi o qədər geniş yayılmışdır ki, hətta müdafiə sahəsində qeyri-həssas satınalma- misal üçün, dəftərxana ləvazimatı, təmizlik xidmətləri, qida

təchizatları – səhvən AB ictimai satınalma qaydalarından çıxarılmışdır. Qeyd etmək vacibdir ki, müdafiə sahəsində qeyri-hərbi avadanlıq və xidmətlər ilə bağlı satınalma müqavilələri **hər zaman** 2004/18/AK direktivi ilə-ictimai sektor direktivi ilə **idarə olunmuşdur.**

AB-ni müdafiə və təhlükəsizlik sahəsində aparıcı qüvvə etmək niyyətində olan Ümumi Təhlükəsizlik və Müdafiə Siyasətinin (ÜTMS)[1] yaranması rəqabətcil və canlı Avropa müdafiə sənayesi bazasının olmasını tələb edir. Büdcə məhdudiyyətləri ilə birlikdə milli meyarlar və protektionist milli siyasətlərlə bağlı parçalanmalar rəqabətliliyə zərər verən və nəticə etibarilə ÜTMS-ın etibarlılığını sarsıdan qeyri-səmərəlilik və resursların təkrarlanmasını yaradar.

Bu səbəbdən, Avropa parlamenti müdafiə sənayeləri, bazarları və satınalmaları sahəsində islahatlar keçirmək məqsədilə konkret təkliflər təqdim etmək üçün Avropa Komissiyasına müraciət etmişdir. Bu prosesin ən hiss olunan nəticəsi milli müdafiə satınalmasını daxili-birlik rəqabətinə açmaq və beləliklə həqiqi pan-Avropa müdafiə satınalma bazarı yaratmaq məqsədi daşıyan 2009/81/AK direktivinin ("Müdafiə və təhlükəsizlik direktivi") qüvvəyə minməsidir.

## Tənzimləyici baza: İlkin AB qanunu

- Ümumi qaydalar və prinsiplər

Hüquqi nöqteyi-nəzərdən, müdafiə satınalmaları daxili bazarın ayrılmaz bir hissəsidir və Avropa müqavilələrində öz əksini tapmış ümumi qaydalara məruz qalır. Xüsusilə, müdafiə satınalmaları aşağıdakıların əsaslı qaydaları və prinsiplərinə məruz qalır:

- Milliyyət baxımından qeyri-diskriminasiya;
- Malların sərbəst mübadiləsi;
- Xidmətlərin sərbəst mübadiləsi;
- Quruluşun sərbəst mübadiləsi.

Əlavə olaraq, bu AB Ədalət Məhkəməsi tərəfindən tanınan qanunun ümumi prinsiplərinin subyektidir. Bu prinsiplərə aşağıdakılar daxildir:

- Davranış bərabərliyi;
- Qarşılıqlı tanıma;
- Şəffaflıq;
- Mütənasiblik;

Qeyd etmək lazımdır ki, bu qayda və prinsiplər hətta bu müqavilələr müxtəlif satınalma direktivlərinin (özəl sektor, kommunalar, və müdafiə və təhlükəsizlik) tətbiqi sahəsindən kənara çıxdıqda satınalma müqavilələrinin təzminatlarına tətbiq olunur. Misal üçün, onlar dəyəri müvafiq satınalma hüdudları (xaricilərin diqqətini cəlb etməyən kiçik dəyərli satınalma

[1] ÜTMS orijinalı Avropa Təhlükəsizlik və Müdafiə Siyasəti (ATMS) olaraq 1999-cu ildə yaradılmışdır –o Lizbon müqaviləsi əsasında ÜTMS kimi yenidən adlandırılmışdır.

müqavilələri istisna olmaqla) və ya xidmət güzəşt müqavilələrindən (ictimai sektorun 2004/18/AK-nın ictimai sektor haqqında direktivinin miqyasından çıxdığı halda) aşağı olan müdafiə satınalmalarına müraciət edirlər. Bu o deməkdir ki, bu qayda və prinsiplər Müdafiə və Təhlükəsizlik Direktivi qüvvəyə mindikdən əvvəl də müdafiə satınalma müqavilələrində tətbiq olunur.

- ABFM-nin 346-cı maddəsinin təhlükəsizlik azadlığı

ABFM-in 346-cı maddəsi üzv dövlətlərin AB qanunun qayda və prinsiplərindən azalda və fövqəladə tədbirlər onların əsas təhlükəsizlik maraqlarının qorunması üçün zəruri olduqda hərbi ehtiyatlar və digər müharibə materiallarının istehsalı və ticarəti sahəsində fövqəladə tədbirlər görə bilərlər. Əlavə olaraq, bu tədbirlər qeyri-müdafiə məhsullarında daxil birlik ticarətinə mənfi təsir göstərməməlidir.

Yuxarıda qeyd olunduğu kimi, bu müddəa AB qanunun qayda və prinsiplərindən müdafiə satınalmalarının en blok, avtomatik avtomatik istisnasının yaradılması kimi əksər üzv dövlətlər tərəfindən yanlış şərh edilmişdir. AB Ədalət Məhkəməsinə gətirilmiş bir çox hallar bu müddəanın belə geniş şərhinin qanuna zidd olduğunu aydın şəkildə göstərmişdir.

2006-cı ilin dekabrında Avropa Komissiyası ABFM-in 346-cı maddəsinin xüsusi şərhi ilə əlaqədar öz fikirlərini ifadə etdiyi izahedici ismarıc (KOM (2006) 779 Final, *Müdafiə Satınalmaları sahəsində Müqavilənin 296-cı maddəsinin tətbiqi ilə bağlı İzahedici İsmarıc)* təqdim etmişdir. Bu izahedici şərhin qanuni bir cildləməsi olmamasına baxmayaraq, o çox vacibdir, çünki AB qanununa zidd şəkildə müdafiə satınalması sahəsində ortaya çıxan milli tədbirlərlə qarşı-qarşıya qoyulduqda Komissiyanın AB qanununa nəzarət kimi rolunu necə icra edəcəyini izah edəcək..

İzahedici ismarıca görə, üzv dövlətlər müdafiə satınalmaları sahəsində AB qanunlarından ixtisar etmək üçün seçim etdikdə bunu yalnız müvəqqəti və ABFM-in 346-cı maddəsinə müraciət etməklə edə bilərlər. Başqa sözlə, üzv dövlətlər müdafiə satınalmalarını ümumi şərtlərdə AB qanunun tətbiqi sahəsindən ayrı tuta bilməzlər. Bundan əlavə, bu maddəyə müraciət etdikdə üzv dövlətlərin bu müddəanın tətbiqi şərtlərinin qarşılanmadığını nümayiş etdirməyə ehtiyac vardır. Xüsusilə, üzv dövlətlərin aşağıdakıları göstərməsi lazımdır:

- Milli tədbirlər Şura tərəfindən 1958-ci ildə hazırlanmış layihəyə daxil edilmiş müdafiə mallarını əhatə edir;
- Sinifləndirilən müvafiq, zəruri təhlükəsizlik maraqları vardır;
- Zəruri təhlükəsizlik maraqlarını qorumaq üçün fövqəladə milli tədbirlər vacibdir.

Daha dəqiq desək, Müdafiə və Təhlükəsizlik Drektivində qüvvəyə mindikdən sonra üzv dövlət Müdafiə və Təhlükəsizlik Driektivinin yeni “yaradılmış” qaydalarının onun zəruri təhlükəsizlik maraqlarını müvafiq şəkildə qorumamasının səbəbini göstərməlidir.

Zəruri təhlükəsizlik marağının azalması və qorunması arasında əlaqəni müəyyənləşdirməkdə üzv dövlətlərin mülahizəsinin dəqiq formasının hələ də AB Ədalət Məhkəməsi tərəfindən izahına ehtiyac olmasına baxmayaraq, Avropa Komissiyası bu yaxınlarda daha aktiv mövqe (Bax: misal üçün, ikili müdafiə satınalmaları təzminatı prosesləri kontekstində ABFM-ın 346-cı maddəsinin istifadəsinə adekvat şəkildə bəraət qazandırma bilmədiyi üçün Yunanıstan və Çex Respublikalarına qarşı tədqiqatlar) seçmək üçün hazır olduğunu nümayiş etdirmişdir.

**Tənzimləyici baza: İkinci AB qanunu –** Müdafiə və Təhlükəsizlik Direktivi

Müdafiə və Təhlükəsizlik Direktivi[2] 2009-cu il avqustun 21-də qüvvəyə minmişdir. Üzv dövlətlərin Müdafiə və Təhlükəsizlik Direktivini öz milli qanunvericiliklərində əks etdirməli olduqları dövrün sonundan etibarən icraetmə dövrü 21 avqust 2011-ci ildə başa çatmışdır. Yeni vasitələr Birliyin müqdəsəbadlarının bir hissəsini formalaşdırır və buna görə də bütün AB üzvlüyünə (potensial) namizəd dövlətlər üçün müvafiqdir.

Müdafiə və Təhlükəsizlik Direktivi dəyişkən və müdafiə satınalmalarının xüsusiyyətlərini nəzərə alan tənzimləyici baza təmin edir. Yeni vasitənin məqsədi üzv dövlətlər tərəfindən ABFM-in 346-cı maddəsinin əssassız evakuasiyası nümunələrini azaltmaqla milli müdafiə satınalmaları bazarının xarici rəqabətliliyə açılmasından ibarətdir ABFM-in 346-cı maddəsi dəyişməz olaraq qalır. Lakin, yuxarıda qeyd edildiyi kimi, üzv dövlətlər indidən etibarən Müdafiə və Təhlükəsizlik Direktivinin dəqiq şəkildə müdafiə satınalmalarının xüsusiyyətləri və həssas xarakterlərinə cavab vermək üçün təyin olunduğundan bəri AB qanunundan çıxarılışın hansı səbəbdən onların zəruri təhlükəsizlik maraqlarının qorunması üçün zəruri olduğuna bəraət qazandırmalıdır.

- Tətbiqat və müvafiq hüdudlar sahəsi

Prinsip etibarilə, Müdafiə və Təhlükəsizlik Direktivi iki əsas sahəsini əhatə edir:

- Hərbi avadanlıq, əlaqədar xidmətlər və işlər müqavilələri;

- təhlükəsizlik məqsədləri üçün həssas satınalma (yalnız müdafiə və ya milli təhlükəsizlik deyil) və ya təsnifləndirilmiş informasiyan daxil olan satınalma.

Qeyd etmək lazımdır ki, Müdafiə və Təhlükəsizlik Direktivi qüvvəyə mindikdən əvvəl həssas (yalnız qeyri-hərbi) avadanlıq və ya xidmətlərin satın alınması prinsip etibarilə digər satınalma direktivləri (ictimai sektor və ya kommunalar direktivi) ilə əhatə olunmuşdur. Bu o deməkdir ki, ilkin olaraq digər ictimai satınalma direktivləri ilə əhatə olunmuş satınalma müqavilələri ilə əlaqədar Müdafiə və Təhlükəsizlik Direktivinin tətbiq olunması sahəsi haqqında xəbərdar olmaq sifarişçi qurumlar üçün vacibdir.

Müdafiə və Təhlükəsizlik Direktivinin geniş miqyası üzrə məntiqli açıqlama iki tərəflidir: bir tərəfdən, müasir texnologiya müdafiə və getdikcə çətinləşən (adətən, müəyyənləşdirici amil

[2] Müdafiə və təhlükəsizlik sahəsində sifarişçi qurumlar tərəfindən müəyyən iş müqavilələri, təchizat müqavilələri və xidmət müqavilələrinin razılaşdırılması ilə bağlı 13 iyul 2009-cu ildə Avropa Parlamentinin və Şuranın 2009/81/AK Direktivi və 2004/17/AK və 2004/18/AK-yə düzəlişlər

texnologiyanın xarakterindən çox xüsusi texnologiyanın özünün istifadəsidir) mülki texnologiya arasındakı fərqi göstərir. Başqa bir tərəfdən, daxili və xarici təhlükəsizlik arasındakı fərq daha çətindir. Misal üçün, bu günlərdə mülki aeroport vasitəsilə təhlükəsizlik avadanlığı və xidmətlərinin satın alınması ənənəvi müdafiə satınalmaları ilə müqayisədə təhlükəsizlik problemlərini artırır. Bu səbəbdən bu ismarlama, dəyişkən satınalma rejimi də bu təhlükəsizlik satınalma müqavilələrini əhatə edir.

Digər satınalma direktivləri ilə birlikdə müvafiq müqavilələrin dəyərinin Müdafiə və Təhlükəsizlik Direktivinin tətbiq olunması üçün yuxarıda qeyd olunan müəyyən hüdudları olmalıdır. Müvafiq hüdudlar hazırda aşağıdakı kimidir:

- Təchizat və xidmət müqavilələri üçün 412 000 avro;
- iş müqavilələri üçün 5 150 000 avro.

Bundan əlavə, digər ictimai satınalma direktivlərində olduğu kimi bu hüdudlar dövrdən-dövrə yenilənməlidir. Bax: Satınalmalar üzrə qısa məlumat *5 – Əlavə məlumat üçün hüdudların anlaşılması*.

Dəyəri bu hüdudlardan aşağı olan müqavilələr Müdafiə və Təhlükəsizlik Direktivi ilə əhatə olunmur, lakin əgər onlar xarici marağa səbəb olsalar, bu müqavilələr AB qanunun ümumi qayda və prinsipləri ilə əhatə olunar, misal üçün qeyri-diskriminasiya və şəffaflığın prinsipləri. Bax: *Satınalma haqqında qısa məlumat 15* – hüduddan aşağı müqavilələrə tətbiq olunan ümumi qayda və prinsiplər üzrə əlavə məlumat üçün *Aşağı Hüdud Müqavilələri*.

- Satınalma prosedurları

Müdafiə və Təhlükəsizlik Direktivinin ən önəmli innovasiyalarından biri standart satınalma proseduru kimi əvvəlcədən xəbərdarlıqla (məhdudlaşdırılmış prosedurla birlikdə) danışılmış prosedur seçmək üçün sərbəst olan müdafiə sahəsindəki sifarişçi səlahiyyətli qurumlardır. Bu, sifarişçi səlahiyyətli qurumlara daha böyük dəyişkənlik hüququ və iqtisadi operatorlarla müvafiq həlləri müzakirə etmək üçün daha çox sərbəstlik təmin edir. Yadda saxlanmalıdır ki, Avropa Qanunvericisi ictimai sektor üçün yox, Kommunal Direktivlər üçün oxşar yanaşma seçmişdir.

Bundan əlavə, sifarişçi səlahiyyətli qurumlar xüsusi əsaslar üzrə ilkin baxış olmadan danışılmış prosedurdan və rəqabətcil dialoqdan istifadə edə bilərlər. Rəqabətcil dialoqun istifadə üçün əsaslar İctimai Sektor Direktivində olduğu kimidir.

İlkin baxış olmadan danışılmış prosedurun istifadəsi üçün əsaslara ictimai sektor direktivində hər hansı bir ekvivalenti olmayan iki əlavə hal daxildir.
Birinci əsas, sifarişçi səlahiyyətli qurum ilkin baxışla (onların qısaldılmış zaman limitli versiyaların daxil olmaqla) məhdudlaşdırılmış prosedur və ya danışılmış prosedur üçün zaman limitinin tərtib oluna bilmədiyi yalnız belə qısa dövrlər üzrə onların tenderlərinin müvafiqliyinə zəmanət verən iqtisadi operatorlardan hava və sualtı qayıq nəqliyyatı xidmətləri almalı olduqda

xaricdə dağıdılmış (və ya dağıdılacaq) silahlı və ya təhlükəsizlik qüvvələri üçün bu xidmətlərin təminatı ilə bağlı satınalma müqavilələrini əks etdirir.

İkinci əsas böhrandan yaranan vacibliyi əks etdirir. Belə hallarda ilkin baxışsız danışılmış prosedur, ilkin baxışlı (hətta qısaldılmış zaman limitləri ilə) məhdudlaşdırılmış prosedur və ya danışılmış prosedurla uyğunluq böhranın aktuallığı ilə bir araya sığmayandırsa istifadə oluna bilər

Bax: *Satınalma haqqına qısa məlumat- 10* Yuxarıda istinad edilən prosedurlar üzrə ümumi məlumat üçün *İctimai Satınalma Prosedurları nədir və Onlar nə zaman istifadə oluna bilər*.

- İnformasiya təhlükəsizliyi

Müdafiə və Təhlükəsizlik Direktivinin başqa bir önəmli innovasiyası informasiyanın təhlükəsizliyi ilə bağlı xüsusi müddəaların daxil edilməsidir. Müdafiə və təhlükəsizlik satınalma müqavilələrinin həssas mövzu olması ilə əlaqədar təsnifləndirilmiş informasiyanın baxılması həddindən artıq önəmlidir. Müdafiə və Təhlükəsizlik Direktivinə bu məsələni həll etməyə çalışan ismarlama müddəaları daxildir. Misal üçün, sifarişçi səlahiyyətli qurumlar iqtisadi operatorlardan aşağıdakıları tələb edə bilər:

- Təhlükəsizliyin rəsmiləşdirilməsi ilə bağlı müvafiq üzv dövlətlərin təminatlarına müvafiq olaraq, iddiaçı və podratçıların öhdəliyi artıq onların sahibliyində və ya onların baxışına verilərək bütün təsnifləndirilmiş məlumatların məxfiliyinin müvafiq şəkildə qorunmasını tanımışdır;
- Digər podratçılardan yuxarıda qeyd olunan öhdəliyin əldə olunması üçün iddiaçının öhdəliyi müqavilənin icarə edilməsi dövrü müddətinə alt müqavilə kimi yazılmalıdır;
- Hər bir sub-podratçının sub-podrat müqavilənin fəaliyyətlərini həyata keçirərkən əldə etdikləri və ya təqdim etmələri tələb olunan təsnifləndirilmiş məlumatların məxfiliyini müvafiq şəkildə mühafizə etmək üçün tələb olunan imkanlara sahib olmasını müəyyənləşdirməyi sifarişçi səlahiyyətli qurum üçün mümkün edən sub-podratçılarla bağlı informasiya artıq müəyyənləşdirilmişdir; və
- Digər sub-podratçılardan yuxarıda qeyd olunan informasiyanın təmin olunması üçün iddiaçının öhdəliyi müqavilənin şərtlərinin həyata keçirilməsi dövrünə sub-müqavilə kimi yazılmalıdır.

Qeyd etmək vacibdir ki, bu məqamda üzv dövlətlər digər üzv dövlətlər tərəfindən təqdim olunan ekvivalent təhlükəsizlik rəsmiləşdirilməsini tanımalıdır. Belə ekvivalentin mövcudluğu ilə bağlı qərar satın alan üzv dövlətə aid edilir.

- Təchizat Təhlükəsizliyi

Müdafiə və təhlükəsizlik kontekstində təhlükəsizlik təchizatı əsaslı əhəmiyyətə malikdir. Üzv dövlətlər adətən bu əsasda AB satınalma qaydalarından ayrılmaya bəraət qazandırmağa çalışırlar. Faktiki olaraq, təchizat təhlükəsizliyi üzrə xüsusi müddəaların olmaması ictimai sektorun müdafiə satınalmaları müqavilələri üzrə qeyri-müvafiq hesab olunması səbəblərindən biri olmuşdur.

Müdafiə və Təhlükəsizlik Direktivinə üzv dövlətlərin problemlərinə cavab verməyə çalışan xüsusi müddəa daxildir. Xüsusilə Müdafiə və Təhlükəsizlik Direktivi təminat verir ki, sifarişçi səlahiyyətli qurumlar müqavilə sənədlərində təchizat tələblərinin hər hansı təhlükəsizliyini dəqiqləşdirməlidir və iqtisadi operatorlardan aşağıdakıları tələb edə bilər:

- İddiaçının müqavilə ilə əlaqədar malların ixracı, daşınması və köçürülməsi ilə bağlı öhdəliklərini yerinə yetirmə biləcəyini göstərən (sifarişçi səlahiyyətli quruma) sertifikat və ya sənədləşmə;
- İxracata nəzarət və ya təhlükəsizlik tədbirlərindən yaranan məhsullar və xidmətlərin açılması, köçürülməsi və ya istifadəsi yaxud onların hər hansı nəticəsi ilə bağlı sifarişçi səlahiyyətli qurum haqqın hər hansı məhdudiyyət göstəricisi;
- İddiaçının təchizat zincirinin təşkilatı və yerinin təchizat təhlükəsizliyi ilə uyğunluğuna imkan verməsini göstərən sertifikat və ya sənədləşmə və müqavilənin həyata keçirilməsi dövrü ərzində onun təchizat zincirində mümkün dəyişikliklərin bu tələblərlə uyğunluğuna mənfi təsir göstərməyəcəyinə təminat verən öhdəlik;
- Böhran nəticəsində sifarişçi qurumun əlavə ehtiyaclarını qarşılamaq üçün tələb olunan potensialı yaratmaq və ya qoruyub saxlamaq məqsədilə iddiaçıdan öhdəlik və böhran nəticəsində sifarişçi qurum/müəssisənin əlavə ehtiyaclarının yerinə yetirilməsi ilə əlaqədar iddiaçının milli səlahiyyətli qurumlardan aldığı hər hansı dəstəkləyici sənədləşmə;
- Müqaviləyə daxil olan təchizatların qorunub saxlanması, müasirləşdirilməsi və ya adaptasiyasını həyata keçirmək üçün iddiaçının öhdəliyi;
- İddiaçının həmin səlahiyyətli quruma qarşı öhdəliklərinə mənfi təsir göstərə bilən təşkilatı, təchizat zinciri və ya sənaye strategiyasında hər hansı dəyişiklik zamanı sifarişçi qurumun məlumatlandırılması üçün iddiaçının öhdəliyi;
- Razılaşdırılan şərtlərə müvafiq olaraq, iddiaçının ehtiyat hissələr, komponentlər, yığılmalar və xüsusi yoxlama avadanlığının istehsalı üçün zəruri olan xüsusiləşmiş vasitələrlə, o cümlədən bu təchizatları artıq təmin edə bilmədiyi zamanlarda istifadə üçün texniki təsvirlər, lisenziyalar və təlimatları təmin etmək barədə öhdəliyi.

Qeyd etmək lazımdır ki, sifarişçi qurumlar iddiaçını üzv dövlətdən onun milli ixracın, köçürməsi və ya daşıma şərtlərinin tətbiqindən boyun qaçıracağı öhdəlik götürməyə məcbur edə bilməz, bu yalnız o halda ola bilər ki, Beynəlxalq və ya Birliyin qanuna müvafiq olsun.

- Müdafiə vasitələri

Müdafiə və Təhlükəsizlik Direktivinin başqa bir önəmli cəhəti əsas müddəalara əlavədir, bura müdafiə vasitələri ilə bağlı xüsusi müddəalar daxildir. Müdafiə vasitələri ilə bağlı müddəalar Müdafiə vasitələri Direktivi ilə eyni bərabərdədir (2007/66/AK Direktivi ilə düzəliş edildiyi kimi 89/665/AK Direktivi). Bax: *Satınalmalar haqqında qısa məlumat 12* – müdafiə vasitələrinin tələbləri ilə bağlı informasiya üçün *Müdafiə vasitələri*.

Müdafiə və təhlükəsizliyin xüsusiyyətlərinə müvafiq bəzi variantlar mövcuddur. Misal üçün, səmərəsizliyin nəticələri daha böyük müdafiə və təhlükəsizlik müqaviləsini təhlükə altında qoyursa, müqavilənin səmərəsizliyi mövcud ola bilməz.

Müdafiə və təhlükəsizlik satınalmasının xüsusi xarakteri ilə bərabər üzv dövlətlər müdafiə və təhlükəsizlik satınalmaları hallarının baxılması üçün təkbaşına mühakimə hüququ olan xüsusi orqanı təşkil etməkdə də müstəqildirlər, yalnız o halda ki, o məhkəmə baxışına müvafiq olan bütün təminatları qoruyub saxlasın və müvafiq satınalmalarla bağlı qərar nəticə etibarilə AB qanunun məqsədlərilə məhkəmə və ya tribunal kimi hesab olunan qurum tərəfindən baxıla bilən olsun (yəni qurum AB Ədalət Məhkəməsinin ilkin problemlərinə istinad edə bilsin).

**Digər məsələlər:**

- **Ofsetlər**

Ofsetlər müdafiə satınalmaları sahəsində sifarişçi qurumlar tərəfindən onların “investisiya”-nın bir növ geri qayıtması (misal üçün, müdafiə avadanlığı və ya əlaqədar xidmətlərin alınması üçün xarici müdafiə podratçısına verilən ödəniş) kimi daxili sənaye üçün mühafizə məqsədilə həyata keçirilən təcrübələrdir. Məsələn, ofsetlər *yenidən istehsal* və ya *subpodratçılıq* vasitəsilə müdafiə müqaviləsinin istehsal mərhələsində müdafiə sənayesinin iştirakında, və ya xarici təchizatçının gələcək müqavilələrində subpodratçı kimi daxili sənayenin iştirakında formalaşa bilər. Ofsetlər xüsusi satınalma prosesində və ya təzminat meyarı kimi xarici podratçıların iştirakı üçün bir şərt kimi ortaya çıxa bilər. Ofsetlər kiçik və ya orta ölçülü müdafiə sənaye bazalı ölkələrin müdafiə satınalmaları rejimlərinin ümumi xüsusiyyətlərindən ibarətdir.

Müdafiə və Təhlükəsizlik Direktivi açıq şəkildə ofsetlərin önəmli problemi ilə məşğul olmur. Lakin, 296 AK maddəsinin (ABFM-nin 346-cı maddəsi) İzahedici İsmarıcında və ofsetlərlə bağlı Təlimat Qeydində izah edildiyi kimi Avropa Komissiyasının mövqeyi o ofsetlərdir ki, onların əlaməti, fərqliliyi ilə satınalma vəziyyətinin daxili sənayesini inkişaf etdirmək məqsədi daşıyır. Bu o deməkdir ki, prinsip etibarilə ofsetlər AB qanununa ziddir.

Buna baxmayaraq, xüsusi ofset təcrübələri AB müqavilələrində mövcud olan istisnalardan birinin əsasında bəraət qazandırıla bilər. Ən müvafiq olanı, sözsüz ki, ABFM-in 346-cı maddəsidir. Başqa sözlə, üzv dövlətlər bu təcrübələr yuxarıda müzakirə olunduğu kimi ABFM-in 346-cı maddəsinin şərtlərini qarşılaya bilərsə, müəyyən ofsetlərə bəraət qazandıra bilər. Qeyd etmək vacibdir ki, bu məqamda Avropa Komissiyasının qeyri-hərbi ofsetlərə bəraət qazandırması çətin ola bilər, misal üçün, ofset öhdəlikləri müdafiə sektoru ilə əlaqəsi olmayan

xarici podratçının üzərinə öhdəlik qoymuşdur. Məsələn, əgər xarici müdafiə podratçısı ABFM-in 346-cı maddəsi əsasında satınalma dövlətinin sənayesindən müəyyən sayda sürətçıxarma maşını almağa məcbur olur, çünki onlar satın alan üzv dövlətlərin zəruri təhlükəsizlik problemləri ilə bağlı aydın bir əlaqəyə malik deyil.

Avropa Müdafiə Agentliyinin sonrakı təşəbbüsü, ofsetlərlə bağlı Davranış Qaydaları (1 iyul 2009-cu ildə qüvvəyə minmiş) ofsetlərin mənfi təsirlərini azaltmağa çalışır.

Yuxarıda qeyd edildiyi kimi, Müdafiə və Təhlükəsizlik Direktivinə ofsetlerlə bağlı müddəalar daxil deyil. Lakin, bura üzv dövlətlərin, misal üçün, AB qanuna müvafiq kiçik və orta ölçülü müəssisələrin qorunması kimi ofsetlər qəbul etməsinə gətirib çıxarmış problemlərin bəzilərinə müraciət etmək niyyətində olan "subpodratçılıq"la bağlı müddəalar toplusu daxildir. Xüsusilə, Müdafiə və Təhlükəsizlik Direktivi əsas podratçıdan üzv dövlətlərə müqavilənin hissələrini üçüncü tərəflərə imzalatmağı xahiş edir. Lakin qeyd etmək lazımdır ki, potensial subpodratçılar milliyyət baxımından diskriminasiyaya məruz qalmamalıdır. Bu, Müdafiə və Təhlükəsizlik Direktivi və ofset təcrübələrinin "subpodratçılıq" müddəaları arasındakı əsas fərqdir.

- **Paralel rejimlər:**

### AMA-nin Müdafiə Satınalmaları ilə bağlı Davranış qaydaları

AB müdafiə satınalması sahəsində digər bir müvafiq rejim Avropa müdafiə Agentliyinin (1 iyul 2006-cı ildə fəaliyyətə başlamış) Davranış qaydalarıdır.

ABFM-in 346-cı maddəsinin şərtlərinin qarşılanmadığı satınalma müqavilələri halında, başqa sözlə Müdafiə və Təhlükəsizlik Direktivi tərəfindən əhatə olunmadığı hallarda qeyri-hüquqi rabitələşdirmə, qeyri-hüquqi tətbiqat rejimi könüllüdür.

Davranış qaydaları dəyəri 1 milyon avronu keçənlər müdafiə (təhlükəsizlik yox) satınalma müqavilələri üçün müvafiqdir. Bu rejimə məruz qalan müqavilələr Müdafiə və Təhlükəsizlik Direktivi tərəfindən təşkil olunan daha rahat tələbləri yerinə yetirməlidir. Xüsusilə, sifarişçi qurumlar hər hansı satınalma prosedurunu seçməkdə sərbəstdirlər, o halda ki, şəffaflıq, qeyri-diskriminasiya və bərabər davranış prinsiplərinə əməl etsinlər. Başqa sözlə, rejim Müdafiə və Təhlükəsizlik Direktivi ilə eyni məqsədlərə malikdir, lakin o zahirən fərqli sahəni (məsələn, ABFM-in 346-cı maddəsinin şərtlərinin qarşılandığı satınalma müqavilələri) əhatə edir və daha az perspektivdir. Mərkəzi elektron portalda dərc olunan müqavilə imkanları hər kəs üçün açıqdır.

Qəbul edilmişdir ki, Davranış Qaydasının əhəmiyyəti Müdafiə və Təhlükəsizlik Direktivində qüvvəyə mindikdən sonra azalacaqdır, çünki məqsəd üzv dövlətlərin ABFM-in 346-cı maddəsinə daha az mürciət etməsinə nail olmaqdır, Müdafiə və Təhlükəsizlik Direktivinin ismarlama xarakterini nəzərə alaraq.

## Müdafiə satınalmaları: AB-Üçüncü ölkələr

Yuxarıda qeyd edildiyi kimi, Müdafiə və Təhlükəsizlik Direktivi indi Birliyin müqdəsəbadının hissəsini formalaşdırır, bu o deməkdir ki, bütün hazırkı və gələcək namizəd ölkələr öz milli qanunvericilikləri çərçivəsində əməkdaşlıq etməlidir.

AB tərəfindən götürülən mövcud öhdəliklərlə və onun çoxtərəfli Hökumət Satınalma Razılaşması əsasında üçüncü ölkələr istiqamətindəki üzv dövlətləri ilə əlaqədar olaraq demək mümkündür ki, HSR-nın XXIII (1) maddəsi  müqaviləni imzalayan hər hansı bir tərəfə silahların, sursatların və ya müharibə materiallarının satın alınması və ya milli müdafiə məqsədilə milli təhlükəsizlik üçün lazımi satınalma ilə əlaqədar zəruri təhlükəsizlik maraqlarının qorunması məqsədilə zəruri hesab olunan hər hansı bir tədbirin görməsinə imkan verir. Bundan əlavə, HSR-ın I əlavəsinin (3) hissəsi aydın şəkildə göstərir ki, müqaviləni imzalayan tərəflər HSR-nin tətbiqi sahəsindən sərt-müdafiə satınalmalarını ayrı tuta bilməzlər. Bu barədə Müdafiə və Təhlükəsizlik Direktivinin preambulasında-18-ci bənddə aydın şəkildə bəhs olunmuşdur.

Qeyd edilməlidir ki, bu məqamda HSR-nın XXIII (1) maddəsinin miqyası ABFM-in 346-cı maddəsinin miqyasından daha genişdir, çünki burada sadəcə “silahlar, sursat və ya müharibə materialları” deyil, həmçinin “milli təhlükəsizlik üçün lazımi satınalmalar” da əksini tapmışdır. Bu o deməkdir ki, üzv dövlətlər HSR-ın XXIII (1) maddəsinə qeyri-hərbi avadanlığın satınalmaları halında da müraciət edə bilərlər.

## Əlavə oxu:

İzahedici ismarıclar və təlimat qeydləri, o cümlədən bu Satınalma haqqında qısa məlumatda əks olunanlar daxil olan Müdafiə Satınalmaları ilə bağlı Avropa Komissiyasının internet səhifəsi:http://ec.europa.eu/internal_market/publicprocurement/rules/defence_procurement/

Bu Satınalmalar haqqında qısa məlumatda istinad edilən Davranış qaydaları ilə bağlı Avropa Müdafiə Agentliyinin internet səhifəsi: http://www.eda.europa.eu